# Türkiyə ilə SSRİ-ni düşmən edən azərbaycanlı

## Hafiz Süleymanovu Turqut Özal qarşılamışdı

Kənan



**Ötən sayımızda Sumqayıtda yaşayan idmançılar ailəsi - Süleymanovlar barədə danışmışdıq. Söz vermişdik ki, bu ailənin ən məşhur siması - dünya və Avropa çempionu Hafiz Süleymanov barədə oxuculara daha geniş məlumat verəcəyik. Sözümüz sözdür.**

### DOSTUNUN MƏSLƏHƏTİLƏ ZALA GƏLDİ VƏ...

Hafiz Süleymanovlar ailəsinə həm dünya boyda şöhrət gətirib, həm də bu ailəni ağlasığmaz təzyiqlərə məruz qoyub. Özü də SSRİ boyda nəhəng ölkənin təzyiqlərinə. Ancaq əvvəlcə gəlin Hafizin idmana necə gəldiyini öyrənək. Hafiz Süleymanov 1967-ci ildə Sumqayıtda, fəhlə ailəsində doğulub. İdmanla uşaq yaşlarından maraqlansa da, ağır atletika ilə 15 yaşından məşğul olmağa başlayıb. 1982-ci ildə şəhərdə yerləşən "Polad" idman klubunda ağır yükü qaldırmağa başlayıb. Ancaq buna qədər güləş və futbolla da məşğul olub. Dostunun məsləhətilə ağırlıqqaldırma zalına gəlib və ağır yükdən əl çəkə bilməyib.

### İSTEDADLA ZƏHMƏTİN SİNTEZİ - UĞUR

İnanılmazdı, amma həqiqətdir. Bu idmanla məşğul olmağa başlayandan cəmisi 3 il sonra - 1985-ci ildə artıq gənclər arasında SSRİ çempionu idi. İstedad Süleymanovun gen daşıyıcısı olub. Sadəcə, bu istedadı zəhmətlə sintez edib bəhrəsini görmək qalırdı. Elə zəhmətsevərlik də onun həyat amalıydı. Fəhlə ailəsində, çörəyin min bir zəhmətlə, alın təriylə qazanıldığı ailədə böyümüşdü axı. İlk uğurdan sonra artıq titullar ard-arda gəlirdi. 1986-cı ildə Hafiz hərbi xidmətə yollanır. Perspektivli idmançı olduğu üçün hərbi xidmətini Moskvada - Ordu İdman Klubunda



(OİK) keçir. 1986-cı ildə qəhrəmanımız 52 kq çəki dərəcəsində gənclər arasında Avropa çempionu olur, dünya çempionatında isə bürünc medal qazanır. 1987-ci ildə çəkisini 56 kiloya qaldıraraq, yenə də Avropa çempionluğunu əldə edir. Və dünya çempionatında rəqiblərini gücü ilə heyran edərək, qızıl medal qazanır.

### ERMƏNİYƏ BÖYÜK FƏRQLƏ QALİB GƏLMƏSƏYDİ...

Bundan sonra isə böyüklər arasında mübarizəyə qoşulur. 1989-cu ildə artıq bütün dünya azərbaycanlı Hafiz Süleymanovdan danışırdı. O, həmin il həm Avropa, həm də dünya çempionatında qızıl medal qazanır. Süleymanovun həyatındakı ən böyük dönüş də Afinada keçirilən dünya çempionatından sonra başlayır. Bu barədə danışmamışdan əvvəl bir məqamı qeyd edək: SSRİ kimi nəhəng dövlətdə - xalqlar həbsxanasında azərbaycanlı idmançının dünya çempionatına yollanması çox çətin idi. Bunun üçün azərbaycanlı rus, ukraynalı idmançıdan ən azı iki baş üstün olmalıydı. Hələ erməni maneəsini demirik. Hafiz Süleymanov dünya çempionatına yollanmaq üçün məhz erməni idmançıya böyük fərqlə qalib gəlmişdi.

### AFİNADA TÜRKİYƏ - SSRİ MÜBARİZƏSİ VƏ BÖYÜK QAÇIŞ

Afinada bütün dünyanı heyrətə salan Hafiz Süleymanov Türkiyənin nümayəndə heyətinin diqqətini cəlb etdi. 1989-cu ildə Türkiyə iqtisadi inkişaf mərhələsinə qədəm qoymuşdu. İdmana da böyük qayğı göstərilirdi. Hökumət bütün dünyada olan istedadlı türk idmançıları hər vasitə ilə ölkəyə gətirməyə çalışırdı. Belə məqamda Türkiyənin "qulağının dibində" -Afinada gücü ilə hamını heyrətləndirən Hafiz Süleymanovu əldən buraxmaq olmazdı. Türklər Hafizi SSRİ-dən qaçmağa razı sala bildilər. Amma məsələ bununla bitmirdi. "Qırmızı imperiya" son illərini yaşasa da, hələ qorxulu idi. SSRİ Süleymanovun qaçırılması ilə barışmaq istəmirdi. SSRİ-nin Dövlət Təhlükəsizlik Komitəsi (DTK) bütün mümkün vasitələrdən yararlanırdı ki, idmançını geri qaytarsın. Təbii, onu geri qaytarsaydılar, başına sığal çəkməyəcəkdilər, ciddi cəzalandıracaqdılar. Bunu Süleymanov da anlayırdı. Artıq geriyə yol yox idi. DTK əməkdaşları bir gecənin içində Hafizin atasını Afinaya apardılar. Oğlu ilə söhbət edib, onu "ağıllandırması" üçün. Sözsüz, DTK əməkdaşları söhbətdən əvvəl atanı təlimatlandırmış, ailəni hansı təzyiqlərin gözlədiyi barədə məlumatlandırmışdılar. Amma bütün bu təlimatlara, hədələrə baxmayaraq, ata oğlu ilə söhbətdən sonra Hafizin qərarını dəstəklədi. Və DTK-nın bütün cəhdləri iflasa uğradı.

### TÜRKİYƏ ONU BÖYÜK TƏMTƏRAQLA QƏBUL ETDİ

Hafiz Süleymanov xüsusi təyyarə ilə Türkiyəyə gətirildi. Bütün Türkiyə onun gəlişini gözləyirdi. Süleymanovu hava limanında Türkiyənin mərhum prezidenti Turqut Özal (həmin vaxt baş nazir idi) şəxsən qarşıladı. Artıq yeni ölkə və yeni həyat başlayırdı. Türkiyə Hafizi böyük təmtəraqla qəbul etdi. Ancaq bu təmtəraq idmançı karyerasında işlərin yağ kimi gedəcəyinə təminat ola bilməzdi. İdman rəqabətdir. Təbii ki, Türkiyədə də onu çətin rəqabət gözləyirdi. Üstəlik, mentalitet fərqi də vardı. SSRİ qapalı, sosialist, Türkiyə isə bütün dünyaya açıq, kapitalist ölkə idi. Mühitə, şəraitə uyğunlaşmaq asan deyildi. Hələ təzyiqləri demirik. DTK-nın təzyiqləri davam edirdi. Ailəsi ilə telefon əlaqəsi saxlayırdı və valideyinlərinə olan təzyiqdən məlumatlıydı. Bu da istər-istəməz ona təsir edirdi. Türkiyəyə gələn kimi ona yeni pasport verdilər. Süleymanoğlu soyadı ilə. Bir müddət oteldə yaşadı, sonra ev və maşınla təmin etdilər. Artıq Türkiyə adına yarışlara qatılmaq zamanı çatmışdı. Məsuliyyət böyük idi. Zarafat deyil, ona görə Türkiyə SSRİ boyda nəhəng ölkə ilə düşmən olmuşdu. Bu düşmənçiliyin boşuna yox, istedadlı bir idmançıya görə yaşandığını sübut etmək lazım di. Sübut etdi də. Amma ağır zədə də aldı. 1990-cı ildə keçirilən dünya çempionatında Türkiyəyə qızıl medal qazandırdı. Ancaq dünya rekordunu təzələmək istəyərkən, qolunu da qırdı.

Zədəsini bərpa edəndən sonra Avropa çempionatına qatıldı. 1991-ci ildə keçirilən Avropa çempionatında da hamıdan güclü oldu, qızıl medal qazandı.





### OLİMPİADALARDA YAŞANAN KABUS VƏ İNANILMAZ QAYIDIŞ

Hər şeyin qaydasında getdiyini güman etmək olardı. Amma 1992-ci ildə Barselonada keçirilən Olimpiadada uğursuzluqla üzləşdi. Sifariş verdiyi çəkinin öhdəsindən gələ bilmədi. İdmanla maraqlananlar bunun nə demək olduğunu yaxşı anlayarlar. Belə durumla üzləşəndən sonra hər idmançı özündə güc tapıb, toparlanmağı bacarmır. Əksəriyyəti mənəvi, psixoloji cəhətdən sınır, karyerasını bitirmək məcburiyyətində qalır. Olimpiadadan sonra Hafizə də böyük təzyiqlər oldu. Mətbuat onu kəskin tənqid etdi, bundan sonra heç nəyə yaramayacağını iddia etdilər.

Amma o, ruhdan düşmədi, dəmir iradəsinə güvəndi, mübarizə apardı. 1993-cü ildə keçirilən Avropa çempionatına yeni-59 kq çəkidə qatıldı və gümüş medal qazandı. Elə həmin il Fransada keçirilən Ağ dəniz oyunlarında iki qızıl, bir gümüş medala sahib çıxdı. 1993-cü ildə Avstraliyada keçirilən dünya çempionatında da gümüş medalı boynundan asdı. Bir il sonra - Türkiyədə keçirilən dünya çempionatında da eyni uğuru təkrarladı. 1995-ci ilin Avropa çempionatında isə qəniməti bir qızıl, iki bürünc medal oldu. Avropa çempionatında birdən qaldırmada 140 kilonun öhdəsindən gələrək, dünya rekordu qırdı. Hafiz Süleymanoğlunun qazandığı medallar sel kimi axırdı Türkiyəyə. Qarşıdan isə yenə də olimpiya oyunları gəlirdi. Ancaq bu dəfə də bəxt ondan üz döndərdi. 4 il əvvəl yaşadığı uğursuzluq 1996-cı ildə keçirilən Olimpiadada da onu tapdı. Yenə də sifariş verdiyi çəkinin öhdəsindən gələ bilmədi. Yenə də təzyiqlər başladı. Bu dəfə daha sərt. İndi ən nikbin pərəstişkarları da Hafizin "diriləcəyinə" inanmırdı. Amma qayıtdı. Özü də necə qayıtdı. 1997-ci ildə keçirilən Avropa çempionatına yeni çəkidə - 64 kiloda qatıldı və hər kəsi heyrətləndirdi. Birdən qaldırmada, 142,5, təkanla qaldırmada 165 kilo çəkinin öhdəsindən gələrək, toplam 307,5 kq qaldıraraq, 3 qızıl medal qazandı. Fantastik göstərici idi. Elə həmin il Tailandda keçirilən dünya çempionatından da 2 gümüş medal gətirdi Türkiyəyə.

### VƏTƏNƏ QAYIDIŞ

Hafizə görə Sülyamanovlar ailəsinə təzyiqlər 1992-ci ilə qədər davam edib. O, Azərbaycana 2001-ci ildə qayıdıb. Qayıdıb və yenə də sevdiyi, bacardığı işin qulpundan yapışıb. "Zirvə" idman klubunda məşqçi kimi çalışır. Bilik və təcrübəsini gənc idmançılara ötürür. İnanır ki, bu gənclərin arasından dünya, Avropa və olimpiya çempionları çıxacaq.